Prof. Dr. Yaqub Mahmudov 80. Yıl Armağanı Özel Sayısı
ISSN:2148-2292
Akademik Tarih ve Düşünce Dergisi, 6(5) Kış 2019 ss. 164-188
Academic Journal of History and Idea, 6(5) Winter 2019 pp. 164-188
Araştırma Makalesi
Original Article

# Azerbaycanın Sovyetleşmesinden Sonra Sovyet Rusya'nın Nahçıvan Bölgesi'ne Yönelik Politikası (Mayıs - Temmuz 1920)

**Kamran İsmayılov***
**ORCID:0000-0001-5486-7126**

**Öz**

Makale, Azerbaycan'ın Sovyet Rusya tarafından işgalinden sonra Nahçıvan'da askeri ve siyasi-diplomatik süreçleri, Bolşeviklerin Nahçıvan'a ilişkin eylemlerini, Ermenistan'ın bölgeyi ele geçirme girişimlerini, Türkiye'nin yeni yönetiminin ve Sovyet Azerbaycanı hökumətinin bu bölgenin ermeni işğalından qorunması için apardıqları mücadile sunmaktadır. Azerbaycan'ın Sovyetleşmesi ve Kızıl Ordu'nun güneye ilerlemesi, Sovyet Rusya, Sovyet Azerbaycan, Taşnak Ermenistan ve Yeni Türkiye arasındaki ilişkilerin merkezi olan Nahçıvan'da yeni bir jeopolitik durum yarattı. Azerbaycan'ın işgalinin ardından Bolşevikler Ermenistan ve Gürcistan'ı da elekeçirmeyi planladılar. Ancak, Kızıl Ordu'nun diğer alanlardaki başarısızlığı, planlarında ayarlama yapmalarını sağlamıştır. Bolşevikler, Taşnak Ermenistan'la ilişkiler kurmak ve Azerbaycan ile Türkiye arasında kuru bir ilişki kurulmasını önlemek için Nahçıvan'ı Ermenistan'a devretmeye hazırdılar. Ancak Bolşevikler, N.Narimanov'un ''Nahcivan meselesinde'' güçlü direnişiyle karşı karşıya kaldılar. Aynı zamanda, Kamal hükümeti Nahçıvan'ın Sovyet Rusya ile ilişkileri açısından önemini anlasa da, ancak bölgenin Ermenistan tarafından işgaline karşı aktif olarak yer aldı.

**Anahtar Kelimeler:** Azerbaycan, Nahçıvan, Sovyet Rusya, Taşnak Ermenistan, Türkiye

**Gönderme Tarihi: 30/07/2019** **Kabul Tarihi:26/11/2019**

* *Doç. Dr., Azerbaycan Milli İlimler Akademisi Tarih Enstitüsü, E-mail:ismayilov-kamran@mail.ru*

© ATDD Tüm Hakları Saklıdır
CC BY

# Nakhchivan Region in the Politics of Soviet Russia After the Sovietization of Azerbaijan (May-July 1920)

**Kamran Ismayilov**

**Abstarct**

This article highlights the military-political situation that has developed around the Nakhchivan region after the occupation of Azerbaijan by Soviet Russia, the Bolshevik plans for Nakhchivan, Armenia's attempts to seize the region, the struggle of the new Turkish leadership and the government of Soviet Azerbaijan against such attempts.It is noted that the Sovietization of Azerbaijan and the advance of the Red Army to the south created a completely new geopolitical situation in Nakhchivan, turning this region into the epicenter of military and political-diplomatic relations between Soviet Russia, Soviet Azerbaijan, Dashnak Armenia and new Turkey. After the occupation of Azerbaijan, the Bolsheviks hatched plans for the Sovietization of Armenia and Georgia. However, the failure of the Paint Army on other fronts forced them to adjust their plans. In order to establish relations with the Dashnak government of Armenia, as well as to prevent the establishment of a common land connection between Azerbaijan and Turkey, the Bolsheviks were ready to cede Nakhchivan to Armenia. However, the Bolsheviks encountered sharp resistance of N. Narimanov in the ‘‘Nakhchivan issue.’‘ At the same time, the government of M. Kemal, although it understood the importance of Nakhchivan in establishing ties with Soviet Russia, was actively fighting against the occupation of the region by Armenia

**Keywords:** Azerbaijan, Nakhchivan, Soviet Russia, Dashnak Armenia, Turkey
**Received Date: 30/07/2019** **Accepted Date: 26/11/2019**

# Нахчыванский регион в политике Советской России после советизации Азербайджана (май-июль 1920- года)

**Кямран Исмаилов**

## РЕЗЮМЕ

В представленной статье освещаются военно-политическая ситуация, сложившаяся вокруг Нахчыванского региона после оккупации Азербайджана Советской Россией, планы большевиков в отношении Нахчывана, попытки Армении захватить регион, борьба нового турецкого руководства и правительства советского Азербайджана против таких попыток.Отмечается, что советизация Азербайджана и продвижение Красной армии на юг создали совершенно новую геополитическую ситуацию в Нахчыване, превратив этот регион в эпицентр военных и политико-дипломатических отношений между Советской Россией, Советским Азербайджаном, Дашнакской Арменией и новой Турцией. После оккупации Азербайджана, большевики вынашивали планы советизации Армении и Грузии. Однако неудачи Краской армии на других фронтах заставили их скорректировать свои планы. С целью налаживания отношений с дашнакским правительством Армении, а также недопушения установления общей сухопутной связи между Азербайджаном и Турцией, большевики готовы были уступить Нахчыван Армении. Однако большевики столкнулись с резким сопротивлением Н.Нариманова в «Нахчыванском вопросе». В то же время, правительство М.Кемала хотя и понимало важность Нахчывана в деле установления связей с Советской Россией, но активно боролось против оккупации региона Арменией

**Ключевые слова:** Азербайджан, Нахчыван, Советская Россия, Дашнакская Армения, Турция

**Получено: 30/07/2019** **Принято: 26/11/2019**

## Giriş

Sovet Rusiyasının XI Qırmızı ordusu tərəfindən 1920-ci il aprelin 27-də Azərbaycan Cümhuriyyəti devrildikdən sonra Naxçıvan bölgəsində və onun ətrafında çox ziddiyyətli və gərgin vəziyyət yaranmışdı. Sovet ordusunun komandanlığı Bakını tutduqdan sonra Azərbaycanın digər bölgələrini, o cümlədən Zəngəzur və Naxçıvanı da işğal etmək üçün xüsusi əməliyyat planı hazırlamışdı. Sovet Rusiyasının rəhbərliyi «Ermənistanla Azərbaycan arasındakı mübahisəli ərazi məsələləri nizamlananadək millətlərarası toqquşmalara və qırğınlara yol verməmək üçün» Qarabağ və Zəngəzur kimi Naxçıvanın da Qızıl Ordu tərəfindən tutulacağını bildirmişdi. May ayı ərzində Naxçıvan istisna olmaqla bütün Azərbaycan ərazisi sovet qoşunları tərəfindən nəzarətə götürüldü. XI Qırmızı Ordunun komandanı Levandovski Naxçıvan-Culfa-Ordubad rayonunu ələ keçirmək üçün 32-ci diviziyanın rəisi Şteyderə mayın 25-dək həmin məntəqələrə qüvvə göndərmək əmri verdi. Lakin Sovet-Polşa cəbhəsində yaranmış mürəkkəb vəziyyət, Sovet ordusunun bir neçə istiqamətdə hərbi əməliyyatlar aparması bolşeviklərə Azərbaycanın bu əraziləri ilə yanaşı Ermənistan və Gürcüstan respublikalarını da dərhal işğal etməyə imkan vermədi. Azərbaycanda sovet rejimi qurulduqdan sonra Ermənistanla ərazi məsələləri artıq Moskvanın tam inhisarına keçdi. Ermənistanı və Gürcüstanı hərbi yolla sovetləşdirməkdən müvəqqəti də olsa vaz keçən bolşeviklər Cənubi Qafqazda strateji məqsədlərinə nail olmaq üçün diplomatik vasitələrdən istifadə etməyə çalışırdılar.

## Azərbaycanın İşğalından Sonra Rusiya Bolşeviklərinin Ermənistanla Əlaqələrində Ərazi Məsələləri

Azərbaycanın sovetləşməsindən sonra bolşevik hökumətinin Cənubi Qafqazla bağlı planlarının əsas mahiyyətini Ermənistan və Gürcüstanla gələcək münasibətlər və Türkiyə ilə birbaşa quru əlaqənin yaradılması təşkil edirdi. Əslində bolşeviklər hər iki məsələni bir-biri ilə əlaqədə görürdülər. Moskvanın bu regionda siyasətinin formalaşmasında əsas rolu RSFSR xalq xarici işlər komissarı G.Çiçerin və onun müavini Karaxan, RK(b)P Qafqaz bürosunun və Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasının üzvü S.Orconikidze, RSFSR Hərbi İnqilab Şurasının üzvü, Millətlər üzrə xalq

komissarı İ.Stalin oynayırdı. Azərbaycanın sovetləşdiyi gün, aprelin 28-də Çiçerin Leninə yazırdı ki, bizim qarşımızda Ermənistan haqqında məsələ də duracaqdır. Ermənistan elə yolumuzun üstündədir (Türkiyə ilə quru əlaqəsindən söhbət gedir – K.İ.) və elə etmək lazımdır ki, o heç olmasa bizə mane olmasın. Ermənistanın bizə elə münasibətinə nail olmalıyıq ki, bizə qarşı çıxmasın. Bunun üçün Çiçerin Ermənistana taxıl verməyi təklif edir və bildirirdi ki, Ermənistanla müqavilə məsələsi tezliklə qarşıda duracaqdır.[1]

Bolşevik hökumətinin başçısı V.Leninin Azərbaycanla Ermənistan arasında məsələlərə münasibəti Çiçerinin müavini L.Qaraxanın RK(b)P MK Qafqaz bürosunun və Qafqaz Cəbhəsi Hərbi inqilab şurasının üzvü Q.Orconikidzeyə məktubunda ifadə olunmuşdu. Lenin məsləhət görürdü ki, Sovet hakimiyyətini yaymağa tələsmək lazım deyildir. O, əvvəlcə, Azərbaycanda möhkəmlənməyi, sonra isə Qərb cəbhəsində ciddi vəzifələri və beynəlxalq vəziyyəti nəzərə alaraq Sovet hakimiyyətini yaymağı tövsiyə edirdi. Məktubda bolşeviklərin lideri Ermənistanın yaxın müddətdə onlar üçün maraq kəsb etmədiyini, bununla belə çox rahatsızlıqlar yarada biləcəyini nəzərə alaraq hələlik Ermənistan ilə köhnə Azərbaycan arasındakı sərhədi keçməməyi, mübahisəli əraziləri ultimativ şəkildə tutmamağı, mübahisəli məsələləri isə dinc yolla həll etməyi məsləhət görürdü.[2]

1920-ci il mayın 1-də Azərbaycan SSR xalq xarici işlər naziri M.D.Hüseynov Ermənistan Respublikası hökumətinə teleqram göndərərək Qarabağ və Zəngəzurdan erməni qoşunlarının çıxarılmasını və millətlərarası qırğını dayandırmağı tələb etdi. Əks təqdirdə, Azərbaycan SSR Hərbi İnqilab Komitəsi özünü Ermənistan Respublikası hökuməti ilə müharibə vəziyyətində olduğunu hesab edəcəyini bildirirdi. Həmin gün Orconikidze, Kirov, Mexonoşin və Levandovskinin imzası ilə Ermənistan hökumətinə göndərilmiş teleqramda ondan 24 saat ərzində öz qoşunlarını Sovet Azərbaycanının ərazisindən çıxarması tələb olundu.[3] Bu notaya cavabında Ermənistanın xarici işlər naziri Ohancanyan Azərbaycan ərazisində erməni qoşunlarının olmadığını, əksinə, Azərbaycan qoşunlarının erməni Qarabağına müdaxilə etdiyini və Qarabağ əhalisinin Azərbaycan hakimiyyətinə tabe olması üçün zor işlətdiyini iddia edirdi. Azərbaycan

---

[1]*Respublika Armeniya v 1918-1920 qq,* Politiçeskaya istoriya, Sbornik dokumentov i materialov, Yerevan: Qitutyun, 2000, 183.
[2]Rossiyskiy Qosudarstvenniy Arxiv Sosialno-Politiçeskoy İstorii (RQASPİ), Fond 85, Opis 14, Delo 5, List 1; *Qenotsid armyan. Otvetstvennost Turtsii i obyzatelstva mirovoqo soobşestva,* tom 2, çast 1, Sostavitel, otvetstvennıy redaktor, avtor predisloviya i kommentariya Y. Q. Barseqov, Moskva: 2005. 56.
[3]Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA). Fond 276, Siyahı 9, İş 38, Vərəq 8.

SSR XXİK-nın müavini mayın 9-da Ermənistan hökumətinə müraciət edərək bütün mübahisəli məsələləri həll etmək üçün danışıqlara başlamağı və bunun üçün öz səlahiyyətli nümayəndələrini Bakıya göndərməyi təklif etdi.[4]

Ohancanyanın Ermənistanla RSFSR arasında müqavilə bağlamaq üçün danışıqlara başlamaq təklifinə Çiçerin 17 may 1920-ci il tarixli teleqramında «iki xalq arasında mehriban və möhkəm münasibətlərin qurulması üçün Ermənistan hökuməti ilə müqavilə bağlamağa Sovet hökumətinin razı olduğunu bildirdi.[5]

Qaraxana, Leninə və Stalinə 24 may 1920-ci il tarixli teleqramında Orconikidze yazırdı ki, Ermənistanı partlatmaq olar, lakin bu bizə ərzaq çətinliyi baxımından çox baha başa gələr. Düşünmürəm ki, daşnaklar Türkiyə üçün bizim qoşunlarımızı və silah-sursatımızı buraxmağa razı olsunlar. Bizim bu tələbimiz erməni kütlələri arasında narazılıq yaradar. Hələlik Naxçıvan rayonunu, Ordubad, Culfanı tutaq, sonra görərik[6]. Ermənilər Sovet Rusiyasının Ermənistan vasitəsi ilə Türkiyə ilə əlaqə yaratması üçün əsas şərt kimi ermənilərlə türklər arasında bütün mübahisəli məsələlərin həll edilməsi tələbini irəli sürür və Rusiyanı bu məsələdə vasitəçi olmağa dəvət edirdilər.

RK(b)P MK Siyasi bürosunun mayın 25-də keçirilmiş iclasında «rus qoşunlarının köməyi ilə dərhal sovetləşdirmə təşəbbüsünü öz üzərinə götürmədən Ermənistan hökuməti ilə danışıqları davam etdirmək və Naxçıvanı köhnə türk hökumətinin və Antantanın təsirindən qorumaq üçün tədbirlər görmək» qərara alındı.[7]

Çiçerinin məktubları sübut edirdi ki, o Ermənistanla loyal münasibətlər yaratmağın, ərazi məsələlərində, xüsusilə Naxçıvan məsələsində erməni iddialarının qatı tərəfdarı kimi çıxış edirdi. Bunu onun 1920-ci il iyunun 17-də ÜMİK-in iclasında çıxışı da təsdiq edirdi. Həmin çıxışında geniş xalq kütlələrinin təzyiqi altında Ermənistan hökumətinin Antanta hökumətlərindən daha çox Sovet hökuməti ilə barışığa, mehriban münasibətlərə getdiyini, sovet qoşunları tərəfindən mübahisəli ərazilərin tutulmasına razı olduğunu, yalnız Sovet Rusiyasının milli qırğınları aradan qaldırmağa qadir olduğunu iddia edirdi. O göstərirdi ki, biz yalnız o şərtlərlə Türkiyə ilə dostluq münasibətlərinə giririk ki, Türkiyə ilə erməni xalqı arasında sərhədlər qarşılıqlı sürətdə müəyyənləşdirilsin, qarşılıqlı qırğın dayandırılsın.[8] Çiçerinin S.Orcenikidzeyə ünvanlandığı 1920-ci il 19 iyun tarixli teleqramda Qarabağ, Zəngəzur, Naxçıvan və

[4] *Qenotsid armyan. Otvetstvennost Turtsii i obyzatelstva mirovoqo soobşestva,* 55.
[5] *Qenotsid armyan. Otvetstvennost Turtsii i obyzatelstva mirovoqo soobşestva,* 65.
[6] Qosudarstvenniy Arxiv Rossiyskoy Federasii (QARF), F.130, O.4, Д. 496, L. 73ob.-74ob.
[7] RQASPİ, F.17, O.3, D. 93 L.1, 3ob.-4ob.
[8] *Dokumentı vneşney politiki SSSR,* Tom II, Moskva: Qospolitizdat, 1958, 638-661.

Culfanın Ermənistana və ya Azərbaycana birləşdirilməsi deyil, yerli sovetlərin razılığı ilə Rusiya qoşunlarının işğalı altında olması məqsədəuyğun hesab edilirdi.[9] Moskva Azərbaycanın əzəli torpaqlarını mübahisəli ərazilər hesab etməklə, onlardan Azərbaycana və Ermənistana qarşı təsir vasitəsi kimi istifadə etməyə çalışırdı.

Azərbaycan Sovet hökumətinin ərazi məsələsində kompromissiz mövqeyini Çiçerin Ermənistanla münasibətlərin yaradılmasında əsas əngəl hesab edir, RK(b)P MK Siyasi bürosuna 22 iyun tarixli məktubunda yazırdı ki, Bakıdakı yoldaşların intizamsızlığı və onların hərəkətləri ilə MK-nin müəyyənləşdirdiyi siyasi xətt arasında dözülməz ziddiyyət onların qarşısını almaq üçün tədbirlər görməyi tələb edir. Bunun üçün o Mərkəz tərəfindən Xalq Komissarları Sovetinin nümayəndəsi kimi Bakıya, Qafqaz xadimləri qrupu ilə əlaqəsi olmayan nüfuzlu yoldaşın təyin edilməsini təklif edirdi. Onun nəzərincə, Bakıdakı yoldaşlar öz hərəkətləri ilə kompromisləri pozur, MK-nın Ermənistanla razılaşma əldə olunması tələbini rədd edir, üsyanlara şərait yaradır, qoşunlar tərəfindən tutulması haqqında qərar verilmiş, Azərbaycana birləşdiriləcəyi təqdirdə Ermənistanla razılaşma bağlanmasını tamamilə mümkünsüz edəcək mübahisəli ərazilərin Azərbaycana birləşdirilməsinə təkid edirlər. Belə nüfuzlu şəxs kimi o Sokolnikovun adını çəkir, ikinci namizəd kimi isə Zalkindi təklif edirdi.[10] Bakıdakı yoldaşlar dedikdə Çiçerin heç şübhəsiz, birinci növbədə N.Nərimanovu nəzərdə tuturdu. Eyni zamanda Orconikidzenin Qarabağ və Zəngəzurun Azərbaycanın tərkibində saxlanılması təklifləri də Çiçerini narazı salırdı. Orconikidze bu mövqeyini onunla əsaslandırırdı ki, hər iki rayon iqtisadi cəhətdən Bakı ilə sıx əlaqə şəraitindədirlər və xüsusən «Bəyazid türk diviziyasının paz kimi araya girdiyi indiki məqamda, tamamilə İrəvandan aralıdırlar». Eyni zamanda o hesab edirdi ki, bu qəzalar mübahisəli olaraq qalarlarsa, onlar şübhəsiz, türklər tərəfindən tutulacaq və bütün erməni əhalisi qırılacaqdır. Təkliflərinin reallaşacağı təqdirdə o Azərbaycanı başqa vilayətlərdən imtina etməyə məcbur etməyin mümkün olduğunu göstərirdi.[11] Başqa vilayətlər dedikdə Orconikidze heç şübhəsiz, Naxçıvanı nəzərdə tuturdu. İyunun 26-da Orconikidze ilə baş tutmuş telefon söhbətində Çiçerin yenə də Azərbaycanla Ermənistan arasındakı mübahisəli ərazilərin Azərbaycan qoşunları tərəfindən deyil, rus qoşunları tərəfindən

[9] *Dokumentı vneşney politiki SSSR*, 50.
[10] RQASPİ, F.2, O.1, D. 314, L.10; *Qenotsid armyan. Otvetstvennost Turtsii i obyzatelstva mirovoqo soobşestva*, 72.
[11] RQASPİ, F. 17. O.163, D. 83, L.66-71; RQASPİ, F.85, O.1, D. 2, L. 6-7; *Qenotsid armyan. Otvetstvennost Turtsii i obyzatelstva mirovoqo soobşestva*, 73.

tutulmasına təkid edirdi.[12]

Çiçerinin Azərbaycanın əraziləri hesabına Ermənistanla münasibətləri normallaşdırmaq siyasəti N.Nərimanovda ciddi narahatlıq yaratmışdı və o məktubla birbaşa V.Leninə müraciət etməli olmuşdu. 27 iyun 1920-ci il tarixli məktubunda Nərimanov Çiçerinin simasında Mərkəzi müsəlmanların, Azərbaycanın maraqlarını tapdalamaqda ittiham edərək yazırdı ki, əgər Mərkəzə Azərbaycanı qurban vermək və özünə ancaq Bakını və nefti saxlamaqla şərq siyasətindən tamamilə imtina etmək lazımdırsa, qoy bunu etsin, lakin xəbərdarlıq edirəm: Bakını bütöv Azərbaycansız, satqın daşnaklarla və gürcü menşevikləri ilə qonşuluqda əldə saxlamaq mümkün deyildir. Nərimanov Mərkəzin şərq siyasətini, Qafqaz məsələlərini müsəlmanların rəyi nəzərə alınmadan həll etməkdə də tənqid edirdi: «Rusiya bir tərəfdən Ermənistanın və Gürcüstanın müstəqilliyini tanıyır, eyni zamanda Azərbaycanda Sovet hakimiyyətinin qurulmasına qədər onun mübahisəsiz ərazilərini indi nədənsə mübahisəli hesab edir». Nərimanov əsas təşəbbüskarı Çiçerinin olduğu bu xəttin bolşeviklərin şərq siyasətinə ciddi ziyan vurduğunu, geniş kütlələr arasında bolşeviklərin təsirini azaltdığını, onların opponentlərinin (müsavatçıların - K.İ.) əlinə əlavə silah verdiyini qeyd edərək yazırdı: «bizə deyirlər siz Azərbaycanım tamamilə mübahisəsiz ərazilərini öz əlinizdə saxlaya bilmirsiniz, ancaq şərqin azad edilməsindən dəm vurursunuz». Lenin Nərimanovun məktubunu rəy vermək üçün yenə də həmin Çiçerinə göndərmiş, o isə öz növbəsində mübahisəli ərazilərin rus qoşunları tərəfindən tutulmasını yeganə düzgün qərar olduğunu təkrar edərək, Nərimanovu Bakı tatarlarının (azərbaycanlıların – K.İ.) işğalçılıq meyllərini müdafiə etməkdə, Mərkəzin Ermənistan və Gürcüstanla kompromisə nail olmaq siyasətinə qarşı çıxmaqda ittiham etmişdi[13]. Bu məktub da Çiçerinin ermənilərin təsiri altında olduğunu bir daha göstərirdi. O özü də etiraf edirdi ki, buna qədər o erməni kommunistləri ilə görüşmüş, onlar Azərbaycanın Zəngəzur və Qarabağla bağlı ultimatumundan sonra Ermənistanda ovqatın kəskin sürətdə dəyişdiyini onun diqqətinə çatdırmışdılar. Məhz bu təsirlə izah etmək olar ki, Çiçerin Qarabağın əzəli erməni torpağı olduğunu, guya ermənilərin döyülüb çıxarıldıqdan sonra orada tatarların məskunlaşdığını qeyd edirdi. Maraqlıdır ki, Azərbaycanı bütöv bir ordu ilə işğal edən Sovet Rusiyası, Ermənistanı və Gürcüstanı sovetləşdirmək üçün qüvvəsi olmadığını, bu respublikalarla kompromisə getməyin zəruriliyini iddia edirdi. Çiçerin bu mövqeyini V.Leninə 29 iyun 1920-ci il tarixli geniş məktubunda da təkrar edərək

[12] *Qenotsid armyan. Otvetstvennost Turtsii i obyzatelstva mirovoqo soobşestva*, 74.
[13] RQASPİ, F.17, O.3, D. 92, L. 1-2ob.

yazırdı: «Azərbaycan hökuməti Naxçıvan, Ordubad və Culfa ilə birlikdə Qarabağa, Zəngəzura, Şərur-Dərələyəz qəzasına iddia irəli sürmüşdür. Bu yerlərin çox hissəsi faktik olaraq Ermənistan Respublikasının əlindədir. İki yol vardır: ya Azərbaycan bu yerləri ələ keçirmək üçün öz müsəlman hissələrini göndərməlidir. Ermənilərə qarşı tatar hissələrinin göndərilməsi tamamilə yol verilməzdir və böyük cinayət olardı. İndiki zamanda, türklərin cənubdan bu yerlərə hücum etdiyi vaxtda bu xüsusən yolverilməzdir. Əgər ora göndərilsələr Azərbaycan müsəlman hissələri həmin an türklərə əl uzadacaqlar... Azərbaycanı təmin edəcək ikinci yol: adı çəkilən yerlərin bizim tərəfimizdən tutulması və Azərbaycana hədiyyə kim verilməsi. Nərimanov məhz bu kombinasiyanı nəzərdə tutur. Ermənistandan hansısa ərazilərin qoparılaraq bizim əllərimizlə Azərbaycana verilməsi Şərqdə bizim siyasətimizə tamamilə yanlış kolorit verilməsi demək olardı». Ona görə də o, mübahisəli ərazilərin Rusiya qoşunları tərəfindən tutulmasını, Rusiya işğal hakimiyyətinə tabe etdirilməsini təkid edirdi. Çiçerin hesab edirdi ki, Ermənistanın hakimiyyəti altında olan yerlərin işğalından imtina edilməsi, onunla müqavilə imzalamağı asanlaşdıracaqdır.[14]

Lakin Çiçerini Ermənistana qarşı fəal hərəkətlərdən çəkindirən təkcə hərbi qüvvənin məhdudluğu və Ermənistanla Azərbaycan arasında balanslı siyasət yeritmək istəyi ilə bağlı deyildi. Əsas məsələ türk qoşunlarının şərq cəbhəsində ermənilərə qarşı uğurlu hərbi əməliyyatlar aparmaları, Ermənistan Respublikasının içərilərinə və Naxçıvana doğru irəliləmələri idi. Çiçerin bir tərəfdən Mustafa Kamala məktub göndərərək Sovet Rusiyasının «öz mövcudluğu və öz taleyinə sahib olmaq hüququ uğrunda qəhrəmancasına vuruşan» türk xalqına rəğbətini[15] ifadə edir, digər tərəfdən sovet nümayəndələrinə müraciətlərində «türk təhlükəsi»ndən, bu təhlükədən Bakını qorumaq zəruriliyindən danışırdı.

RSFSR-in Ankaradakı səlahiyyətli nümayəndəsi P.Mdivani Orconikidzeyə teleqramında (29 iyun 1920 ci il) xəbər verirdi ki Naxçıvan rayonunda 3000 süngüyə qədər hissələr gəlib, daha 9000 qədər gəlməsi gözlənilir. Bu sayı 15500-ə çatan Bəyazid diviziyasıdır... Diviziyanın başında təmiz, icraçı və intizamlı hərbçi olan Cavid bəy durur. O məlumat verirdi ki, türklər toqquşma olacağı halda yerli silahlı əhalidən daha 6000 nəfərədək toplaya bilərlər. Ona görə də o əsas vəzifənin türkləri qabaqlayaraq Naxçıvan rayonunun, Culfa və Ordubadın işğal edilməsi olduğunu təklif edirdi. Teleqramda həmçinin bildirilirdi ki, son vaxtlar türklərin onlara (bolşeviklərə - K.İ.)

---

[14] RQASPİ, F.5, O.1, D. 2099, L.1-3ob.
[15] *Dokumentı vneşney politiki SSSR*, 11.

münasibəti dəyişmişdir. Xəlil paşanın həbsi və Azərbaycan müsəlmanlarına qarşı repressiyalar haqında təxribatlar gedir. Buna görə də Mdiviani Kazım paşaya təsir göstərmək üçün onun hissələrini Azərbaycanda işlərin əsil vəziyyəti və Xəlil paşanın azadlıqda olması haqqında məlumatlandırmaq üçün Moskvaya məlumat göndərməyi təklif edirdi.[16]

Çiçerin Mdivianinin məktubundakı faktlarla bağlı Leninə yuxarıda göstərilmiş məktubunda məsələ qoyurdu ki, Naxçıvan yaxınlığında türk hissələrinin görünməsi haqqında Mdivaninin teleqramı aydınlaşdırmır: Kiçik Asiya türk millətçilərinin bütün siyasətində sərt dönüş vardır, yoxsa bu, Kiçik Asiyada ümumi başıpozuqluq səbəbindən öz siyasətin aparan, müsəlman müsavatçıların bizə qarşı yönəlmiş hərəkatı haqqında eşidərək köməyə tələsən ayrıca bir dəstənin əməlidir. Eyni zamanda Çiçerin ehtimal edirdi ki, türklərin irəliləməsi Sovet hakimiyyətinin Azərbaycanda həyata keçirdiyi daxili siyasətlə (tələsik tətbiq edilən kommunist tədbirləri, kiçik burjuaziyaya qarşı repressiyalar, Gəncədə kütləvi qırğınlar nəzərdə tutulur - K.İ.), bu siyasətə qarşı formalaşan müqavimətlə də bağlı ola bilər. Çiçerin türklərin hücumunu nəzərə alaraq Ermənistanın nəzarəti altında olan mübahisəli torpaqları tutmaq planından imtina etməyi, onunla razılaşma imzalamağı təklif edirdi. Türk qoşunlarının irəliləməsinin məqsədlərini aydınlaşdırana qədər Çiçerin türklərə silah göndərməkdə tələsməməyi, bunun üçün o TBMM hökuməti yanında Sovet Rusiyasının nümayəndəsi təyin edilmiş Eliavanın Ankaraya gedib çatmasını gözləməyi, yalnız onun məlumatlarından sonra silah göndərib göndərməmək haqqında düşünməyi təklif edirdi. O vurğulayırdı ki, yalnız vəziyyət aydınlaşandan sonra türklərə silah verilməsi, yaxud bu silahın birbaşa və ya dolayısı ilə onlara qarşı mübarizədə istifadə olunacağı haqqında qərar vermək mümkün olacaqdır. Onun bu mülahizələrini nəzərə alaraq RK(b)P Siyasi Bürosu iyunun 30-da Çiçerinə təklif etdi ki, o rus qoşunlarının Ermənistana doğru hərəkətinin dayandırılması haqqında göstəriş versin. Bununla əlaqədar Qafqazdakı yoldaşlara türklərin hücumuna rəvac verməmək üçün daha ehtiyatlı olmaq tövsiyə edildi.[17]

Çiçerin Orconikidzeyə göndərdiyi məktubda (2 iyul 1920-ci il) bildirirdi ki, biz Türkiyə Milli Mərkəzi (Ankara hökuməti - K.İ.) ilə danışıqlara başlamışıq. Bizə quruda təmas lazımdır, bunun üçünsə biz Ermənistanla müqavilə bağlamalıyıq ki, onun vasitəsi ilə bu təması yaratmaq imkanımız olsun. O yenə də üç Qafqaz respublikası arasında sərhəd mübahisələrini kəsmək üçün mübahisəli ərazilərin sovet qoşunları tərəfindən

---

[16] RQASPİ, F. 17. O.163, D. 83, L.136-137.
[17] RQASPİ, F.17, O.3, D. 93, L.1; *Respublika Armeniya v 1918-1920 qq,* 216.

tutulması fikrini doğru olduğunu təkid edirdi.[18] Orconikidzeyə həmin tarixli ikinci məktubunda Çiçerin daşnak hökuməti ilə kompromisə nail olmağın zəruriliyini bildirir və yazırdı ki, Azərbaycan hökuməti təkcə Qarabağ və Zəngəzuru deyil, Şərur – Dərələyəz qəzasını da mübahisəli elan edir. Sonuncu heç vaxt kimsə tərəfindən mübahisəli elan edilməmişdir, hətta Müsavat hökuməti onun Ermənistana məxsus olduğunu qəbul etmişdir. Onsuz (Şərur –Dərələyəz qəzası nəzərdə tutulur - K.İ.) Ermənistandan heç nə qalmır. Erməni nümayəndələri uzun müqavimətdən sonra Qarabağ və Zəngəzurun mübahisəli ərazilər olmasına razılaşsa da, heç vəchlə Şərur – Dərələyəz qəzasının mübahisəli olmasına razı olmurlar. Ona görə də Çiçerin Orconikidzedən xahiş edirdi ki, o Azərbaycan hökumətinə böyük təsirindən istifadə edərək ona Şərur –Dərələyəz qəzasının deyil, Qarabağ və Zəngəzurun mübahisəli olduğunu qəbul etdirsin[19]. Azərbaycan hökumətinin təkidlərinə baxmayaraq Mərkəzin göstərişinə uyğun olaraq sovet qoşunlarına Ermənistan qoşunlarının işğal etdiyi əraziləri (Zəngəzur və Naxçıvanın bir hissəsini) azad etmək əmri verilməmişdi. Bununla bağlı Çiçerin həmin məktubunda bildirirdi ki, hərbi qüvvələrimizin azlığı və Naxçıvana bizi təhdid edən türk dəstələrinin yaxınlaşması bizi hissələrimiz tərəfindən Ermənistan Respublikasının tutduğu yerləri tutmaq fikrindən daşındırır. Bizim qoşunlarımız Şuşa və Cəbrayılı tutmuşlar və Naxçıvanı və Culfanı tutmaqdan imtina etməli olmuşuq. Bütün bunları, eləcə də qoşunları irəli aparmağa imkanların olmadığını o Azərbaycan hökumətinə bildirməyi zəruri hesab edirdi. Çiçerin Orconikidzeye 3 iyulda göndərdiyi növbəti teleqramda da ermənilərin mübahisəli ərazilərlə bağlı mövqeyini dəstəkləyərək, Qarabağ və Zəngəzurun mübahisəli ərazilər kim tanınmasını, Şərur-Dərələyəz, Naxçıvan, Culfa və Ordubadın Ermənistana verilməsini təkid edirdi.[20] Çiçerin bu tələblərini Sovet Rusiyasının Gürcüstandakı nümayəndəsi S.Kirova göndərdiyi 4 iyul tarixli məlumatında da təkrar edərək ondan Orconikidze ilə əlaqəyə girərək məsələyə müdaxilə etməyi xahiş edirdi.[21]

RK(b)P Siyasi bürosunun Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurası və RSFSR-in Ermənistan, Gürcüstan və Türkiyədəki nümayəndəliklərinə təlimatında da Rusiya XXİK məlum xətti öz əksini tapmışdı.[22]

Nəhayət, Orconikidze Rostovdan Çiçerinə göndərdiyi məktubda Naxçıvanın,

[18] RQASPİ, F.85, O.1, D. 2, L.3-4.
[19] RQASPİ, F. 85, O.3, D. 2, L.1-2.
[20] RQASPİ, F.64, O.1, D. 21, L.3-3ob.
[21] RQASPİ, F.5, O.2, D. 314, L.1.
[22] RQASPİ, F.17, O.3, D. 93, L.6-8.

Ordubadın, və bu rayonun şimal hissəsinin 9 min süngüdən ibarət Bəyazid diviziyası tərəfindən tutulduğu haqqında məlumat verərək, Çiçerinin mövqeyinə münasibət bildirmişdi. Ermənistan hökumətinin şüurlu şəkildə Çiçerini yanlış məlumatlandırdığını bildirən Orconikidze onu bir tərəfin (erməni tərəfinin) diktəsi altında müqavilə bağlamaqda, digər tərəfə (Azərbaycana) isə hazır qərarlar qəbul etdirməkdə ittiham edirdi. Orconikidze yenə də öz mövqeyini bildirərək Azərbaycanın Şərur-Dərələyəz və Naxçıvandan imtina edəcəyi təqdirdə ermənilərin Qarabağ və Zəngəzurun Azərbaycana birləşdirilməsinə razı olacaqlarını bildirmişdi.[23] (Orconikidze ermənilər dedikdə erməni kommunistlərini nəzərdə tuturdu. Bununla bağlı o erməni kommunisti Qabrielyanla görüşdüyünü və onun bu təklifə razı olduğunu bildirmişdi - K.İ.). Onun nəzərincə, məsələnin başqa cür həlli bolşeviklərin Azərbaycanda vəziyyətinin zəifləməsinə, Ermənistanda da onların heç bir şey əldə edə bilməyəcəklərinə səbəb olacaqdır. O eyni zamanda xəbərdarlıq edirdi ki, Azərbaycana belə münasibət, Azərbaycanın geniş kütlələri arasında bolşeviklərin nüfuzunun aşağı düşməsinə səbəb olacaqdır.

Moskvaya, N.Alliluyevaya teleqramında Orconikidze onun mövqeyini Leninə və Stalinə çatdırmağı, Çiçerin və Qaraxanın onu çıxılmaz vəziyyətdə qoyduqlarını onların diqqətinə yetirməyi xahiş edirdi.[24]

Moskvada bu zaman Ermənistan Respublikasının nümayəndə heyəti ilə danışıqlar gedirdi. Lakin erməni nümayəndə heyəti Qarabağın Azərbaycanda qalması, Zəngəzurun mübahisəli zona elan edilməsi və yalnız Naxçıvanın Ermənistana verilməsi təklifini qəbul etmək istəmədi və nümayəndə heyətinin bu cür ərazi güzəştlərinə səlahiyyəti olmadığını bildirdi. Buna görə də danışıqlar dayandırıldı və Sovet hökuməti Ermənistan hökuməti ilə birbaşa danışıqlar aparmaq qərarına gəldi.[25] Bu məqsədlə B.Leqranın İrəvana göndərilməsi qərara alındı.

Orconikidze iyulun 16-da Leninə və Çiçerinə göndərdiyi teleqramda Azərbaycanın iştirakı olmadan Ermənistanla sülh bağlamağın düzgün olmadığını qeyd edərək, «Naxçıvan rayonunda ermənilərlə tatarlar (azərbaycanlılar – K.İ.) arasında qırğının labüd olduğunu, bundan qaçmaq üçün Naxçıvan rayonuna sovet qoşunlarının daxil olmasını və oranı işğal etməsini» zəruri hesab edirdi. İlk dəfə olaraq sovet nümayəndəsi işğalın həyata keçirilməsi üçün kifayət qədər qüvvə olduğunu etiraf edirdi. Hətta bu məqsədlə həmin istiqamətdə kəşfiyyat aparılmasına cəhd edilmiş, lakin XXİK

[23] RQASPİ, F.85, O.1, D. 2 L.8-9.
[24] RQASPİ, F.195, O.4, D. 356, L.1-2.
[25] RQASPİ, F.64, O.1, D. 17, L.12.

tələbi ilə Baş komandanlıq bunu qadağan etmişdi.[26]

Çiçerinin Kirova məlumatından (18 iyul 1920-ci il) da məlum olur ki, artıq Sovet Rusiyasının Xarici İşlər Komissarlığı da Naxçıvan və Şərur-Dərələyəz qəzalarının sovet ordusu tərəfindən tutulmasına razı idi. Sovet hökuməti bu vaxta qədər qüvvə çatışmazlığını səbəb gətirərək Naxçıvan istiqamətində irəliləməkdən çəkinirdisə, indi Naxçıvan, Ordubad, Culfanın tutulmasını zəruri hesab edirdi, hətta hərbi hissələrə bu rayonları tutmaq barədə əmr də verilmişdi.[27]

İyulun 19-da Çiçerin Ermənistanın Xarici işlər naziri A.Ohancanyana teleqramında rus qoşunları tərəfindən Azərbaycanla Ermənistan arasında mübahisəli ərazilərin (Zəngəzurun və Qarabağın K.İ.) tutulmasını qanlı münaqişələrin qarşısının alınması və mübahisəli ərazi məsələlərinin sakit və qərəzsiz şəkildə müzakirə etməyə imkan verən şəraitin yaradılması məqsədi ilə edildiyini vurğulayırdı. Çiçerin teleqramında erməni hökumətini əmin edirdi ki, Sovet hökumətinin Kiçik Asiya türk milli hökuməti (Ankara hökuməti – K.İ.) ilə yaratmağa çalışdığı dostluq münasibətləri həm də erməni xalqının inkişafı üçün Kiçik Asiyada ərazi alınmasına imkanı təmin etmək məqsədi daşıyır.[28]

Çiçerin Siyasi büroya məktubunda (30 iyul 1920-ci il) kamalçıların silah-sursat cəhətdən kritik vəziyyətdə olduğunu, onlara silahın yalnız Ermənistandan tranzit yolla silah göndərməyin mümkünlüyünü, ermənilərin üç ay əvvəl sərbəst tranzitə razı olduqlarının bildirir və vurğulayırdı ki, Azərbaycanın sərhəd mübahisələrində inadkarlığı ucbatından müqavilə bir yerdə ilişib qalıb. Çiçerin Kirovun məlumatına istinad edərək bildirirdi ki, daşnaklar Vrangeldən (daha doğrusu Vrangel vasitəsi ilə Antantadan) patron alıblar, daşnaklardan Ermənistan vasitəsi ilə tam nəzarətsiz yük daşınması hüququnu almağa cəhd göstərmək ümidsiz şeydir, Ermənistanın sovetləşdirilməsi üçün elə də çox qoşun tələb olunmur. Belə halda Ermənistanın sovetləşdirilməsi təkidlə zəruridir. Bunsuz bizim Türkiyə ilə gerçək əlaqəmiz mümkün deyildir. Kamalçıların məhvi Şərqdə bizə böyük zərbə vura bilər.[29] Siyasi büronun həmin gün keçirilmiş iclasında Çiçerinin Ermənistanla bağlı təklifi qəbul edilmişdi.[30]

Bu zaman Azərbaycanın Qarabağ bölgəsində Nuri paşanın rəhbərliyi altında

---

[26] RQASPİ, F. 85, O. 13, D. 51, L.3-6.

[27] RQASPİ, F.5, O.2, D. 314, L.2.

[28] *Velikaya Oktyabrskaya cotsialistiçeskaya revolyutsiya i pobeda Sovetskoy vlasti v Armenii*. Sbornik dokumentov. Yerevan: Aypetrat, 1957, 373-374

[29] *Arxiv Vneşnoy Politiki Rossiyskoy Federasii (AVPRF)*, Fond 4, Opis 51, Delo 54875, List 33; *Qenotsid armyan. Otvetstvennost Turtsii i obyzatelstva mirovoqo soobşestva,* 112.

[30] RQASPİ, F.17, O.3, D. 93, L. 6.

 

Azərbaycan ordusunun bir qrup zabiti Sovet ordusuna qarşı üsyan qaldırmış, məğlub olmuş üsyançılardan 20 zabit olmaqla 42 nəfəri Xudafərin körpüsündən İrana keçmiş, oradan isə Ordubada gəlmişdilər. Nuri paşa Tiflisdə yerləşmiş Azərbaycan hökumətinin keçmiş üzvlərinə məktub göndərərək başçılıq etdiyi hərbi dəstənin Naxçıvan üzərindən Tiflisə sövq edilməsi üçün Avropa hökumətlərinin birindən yardım istəməyi xahiş etmişdi[31]. Nuri paşanın Naxçıvanda olması, onun Avropa hökumət dairələri ilə əlaqə yaratmaq haqqında xəbərlər (əslində Nuri paşanın bu niyyətdə olması ilə bağlı heç bir əsaslı fakt yox idi – K.İ.) türk hərbi komandanlığında ciddi narahatlıq yaratmışdı. Kazım Qarabəkir paşa onun bu hərəkətlərini vətən əleyhinə yönəlmiş bir hərəkət kimi qiymətləndirmişdi. Kazim Karabəkir Nuri paşanın rus komandanlığı ilə əlaqə yaradılmasında maneə olacağını düşünərək ondan öz dəstəsi ilə onun yanına gəlməyi və yapdığı cinayətləri etiraf etməyi tələb etmişdi. Əks halda Nuri paşa vətən əleyhinə düşmənlərlə birgə hərəkət etməkdə ittiham ediləcəyi ilə hədələnmişdi. Bundan bir müddət əvvəl Kazım Qarabəkir paşa Xəlil paşaya məktubunda «müxtəlif nöqtələrdən Anadoluya zorla girmək istəyən müttəfiq qoşunlarına qarşı sona qədər dayanmaq və vətəni istiladan qurtarmaq üçün əsgərə son dərəcədə ehtiyac olduğunu», həmçinin «para, silah və cəbbəxanaya ehtiyac olduğunu bildirir və bunun üçün «hər işdən və hər təşəbbüsdən əvvəl millətə şərqdə bolşevik və müsəlman yolunu açmağın» zəruriliyini göstərirdi. Ona görə də Kazım Qarabəkir paşa Xəlil paşadan Nuri paşa başda olmaqla Qarabağda türk əsgər və zabitlərinin bolşeviklərlə müharibə etmələrini bolşeviklərdə Ankara hökuməti haqqında şübhə və tərəddüd hasil olmaması üçün onların türk qoşunları ilə birləşməsinə səy göstərməyi xahiş edirdi.[32]

Yeri gəlmişkən, Kazım Qarabəkir paşa Ənvər paşanın öz qardaşı Nuri paşanı 1918-ci ildə Azərbaycana göndərmək qərarını da mənfi qarşılamış, bu haqda ordu komandanı Vehip Paşaya məktub da yazmışdı. Onun nəzərincə Ənvər paşa yeni Türk hökumətlərinə (Azərbaycana – K.İ.) öz qardaşını hökmdar kimi göndərmişdi.[33] Nuri paşa və Azərbaycan Süvari alayı iyul ayının əvvəllərində türk komandanlığının tabeçiliyinə keçmiş, ermənilərə qarşı əməliyyatlarda da iştirak etmişdilər.

## Naxçıvan Sovet Rusiyası – Sovet Azərbaycanı - Daşnak Ermənistanı – Türkiyə Qarşılıqlı Münasibətlərində

[31] Kazim Karabekir, *İstiklal Herbimiz*, İstanbul: Yeni Türkiye Yayın Evi, 1960, 806.
[32] Ali Fuat Cebesoy, *Moskova hatıraları*, İstanbul: Vatan yayınları, 1955, 34-35.
[33] Karabekir, *İstiklal Herbimiz*, 807.

1920-ci ilin iyun ayının sonlarında Zəngəzura daxil olan XI Qımızı Ordu hissələri buradakı Njdenin başçılıq etdiyi erməni hissələrini məğlub edərək iyulun 6-da Gorus şəhərini ələ keçirmişdi. Njde 10 avqust 1920-ci il tarixli Ermənistan –Sovet Rusiyası müqaviləsini tanımaqdan imtina edərək, Drodan fərqli olaraq Zəngəzurda mübarizəsini davam etdirmək qərarına gəlmişdi. 1920-ci il sentyabrın əvvəllərində Qafan Qırmızı ordu hissələri tərəfindən tutulduqdan sonra Njde cənuba, Mehriyə geri çəkildi və buradakı keçilməz dağlarda mövqe tutdu. Təqribən bir il ərzində Zəngəzurun cənub rayonlarını nəzarətdə saxlayan Njde və onun dəstəsinin cinayətkar əməlləri sayəsində bölgənin 160-dan çox kəndinin azərbaycanlı əhalisi növbəti dəfə öz yurdlarından didərgin salınaraq qonşu Cəbrayıl qəzasına və Ordubada pənah gətirməli olmuşdu. [*]

Zəngəzurda (Mehri rayonu istisna olmaqla) Sovet hakimiyyəti qurulduqdan sonra Qırmızı Ordu hissələrinin əsas məqsədi cənuba doğru hərəkət edərək Ordubad-Culfa-Naxçıvan xəttinə çıxmaq idi. Bu məqsədlə Levandovski iyunun 25-də müvafiq əmr imzaladı.[34]

Bakıda Sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvan bölgəsində daxili siyasi vəziyyət də xeyli mürəkkəbləşdi. Yerli siyasi liderlər arasında nüfuz uğrunda və xarici oriyentasiya məsələsində yenidən ixtilaflar başladı. Türk və sovet qoşunları arasında yaxınlaşmalar Naxçıvanda birmənalı qarşılanmırdı. Naxçıvanın Azərbaycan

---

[*]1920-ci ilin oktyabrında Njde Ter-Davtyanla birgə Zəngəzurda bolşeviklər əleyhinə başlanmış üsyana başçılıq etmiş, 21 noyabrda XI Qırmızı ordunun hissələrinə qalib gəldikdən sonra Zəngəzurun əksər ərazilərini yenidən ələ keçirmişdi. 1920-ci il dekabrın 25-də Tatev monastırının ərazisində keçirilmiş qurultayda Njde «Sünik respublikasının» yaradaraq və özünü sparapet (başçı) elan etdi. 1921-ci ilin fevralında Ermənistanda daşnak üsyanının məğlub edilməsindən sonra Njde və tərəfdarları 26 aprel 1921-ci ildə Zəngəzurda «Dağlıq Ermənistan Respublikası»nın yaradıldığını elan etdilər. «Respublika»nın ərazisinə Arsax, Sünik, Zəngəzur və hətta Ordubad (Qoxtan adı ilə) belə daxil edilmişdi. Njde bu «respublika»nın baş naziri, hərbi nazir, xarici işlər naziri vəzifələrini özünə götürmüşdü. İyulun 1-də bu «respublika»ya «Dağlıq Ermənistan respublikası» adı verildi (guya birinci Ermənistan respublikasının varis olaraq). Ermənistan Respublikasının sonuncu baş naziri Simon Vraçyan «respublika»nın baş naziri, Njde isə hərbi nazir təyin olundular. Əslində bölgədə kifayət qədər qüvvəyə malik olan bolşeviklər üçün faktik olaraq mühasirə vəziyyətinə düşmüş Zəngəzurda Njdeni məğlub etmək hərbi cəhətdən çox da çətin vəzifə deyildi. Lakin bolşeviklər Zəngəzurdakı separatçı erməni qüvvələrinə qarşı mübarizəyə də regionda baş verən hərbi-siyasi proseslər kontekstindən yanaşaraq ondan Azərbaycana və Türkiyəyə qarşı alət kimi istifadə edir, Zəngəzurdan azərbaycanlıların öz vətənlərinə qayıtmalarına imkan vermirdilər. Son nəticədə bu taktika öz bəhrəsini vermiş, separatçı qüvvələrin nəzarətində olan Zəngəzur de-fakto Ermənistan ərazisi kimi tanınmışdı. Erməni tarixçilərinin yekdil fikrinə görə Njde Zəngəzurun Ermənistanda qalmasına dair Sovet Ermənistanı rəhbərliyindən təminat aldıqdan sonra bolşeviklərlə mübarizəsini dayandıraraq iyulun 12-də İrana keçərək mühacirət etmişdi. Sonralar o hesab edirdi ki, faktik olaraq öz mübarizəsi ilə Qarabağdan və Naxçıvandan fərqli olaraq Zəngəzuru Ermənistanın tərkibində qalmasına nail olmuşdu. (Qareqin Njde, *Korotkaya bioqrafiya i letopis jizni*, http://nashasreda.ru/garegin-nzhde/ (erişim tarihi 15.05.2019))

[34] *İnternatsionalnaya pomoş XI Armii v borbe za pobedu Sovetskoy vlasti v Azerbaydjane* . Dokumentı i materialı (1920-1921 qq.), Baku: Azerneşr, 1989, 82-83

Cümhuriyyəti ilə əlaqələri kəsilmiş, S.Cəmillinski bölgəni tərk etməyə məcbur edilmişdi.

Yeni yaradılmış Azərbaycan Sovet hökumətinin bir çox məsələlərdə olduğu kimi ərazi bütövlüyü məsələsində ziddiyyətli, antimilli mövqeyi özünü birinci növbədə, Naxçıvan, Zəngəzur və Qarabağ bölgələrinə münasibətdə büruzə verirdi. Bunu AK(b)P MK bürosunun 1920-ci il iyul ayının 13 və 15-də keçirilmiş iclasları da təsdiq edir. İyulun 13-də keçirilmiş iclasda «Azərbaycanın mübahisəsiz ərazisi hesab olunan Naxçıvan rayonunun hazırda türk ordusu tərəfindən tutulduğunu nəzərə alınaraq, hər hansı münaqişədən qaçmaq üçün bu rayonun türk qoşunlarından təmizlənməsi tələb olunmuşdu[35], iki gün sonra keçirilmiş iclasda «Ermənistanla sülh haqqında» məsələ ilə bağlı qəbul olunmuş qərarda isə artıq Naxçıvan və digər ərazilərdən (Şərur-Dərələyəzdən) imtina olunması, həmin ərazilərin rus ordusu tərəfindən tutulması təklif edilmişdi[36]. Azərbaycan bolşevik rəhbərliyinin iki gün ərzində mövqeyini dəyişməsi, əlbəttə, Mərkəzin təzyiqi ilə baş vermişdi. Görünür, Azərbaycan rəhbərliyinin mövqe dəyişikliyində Rostovdan Bakıya gəlmiş Q.Orconikidzenin və RSFSR-in Ermənistandakı nümayəndəsi B.Leqranın rolu əsas olmuşdu. 14 iyulda onların Bakıdan Çiçerinə göndərdikləri teleqramda bildirilirdi ki, məsələnin (ərazi məsələsinin - K.İ.) elə həllini zəruri hesab edirik ki, bu həll Azərbaycanı qismən qane edə bilər: Qarabağ bütövlüklə və qeyri-şərtsiz Azərbaycana birləşdirilir, Zəngəzur mübahisəli elan olunur, digər vilayətlər (Naxçıvan, Şərur, Dərələyəz, Ordubad) Ermənistanda qalır[37]. İyulun 15-də keçirilmiş iclasda büro üzvləri ilə yanaşı Orconikidze və Leqranın da iştirak etməsi hər şeyi sübut edirdi. Bununla da Orconikidze Çiçerinə verdiyi sözü qismən yerinə yetirmiş oldu: ‘‘Azərbaycanı digər ərazilərdən (Şərur-Dərələyəz və Naxçıvan qəzalarından - K.İ.) imtina etməyə məcbur etmək olar... Mən Azərbaycanı məcbur edərəm ki, bu ərazilərə muxtariyyət elan etsin, lakin bu qərar Azərbaycandan gəlməlidir’‘.[38]

Bolşeviklərin Naxçıvana doğru hərbi hərəkətdən çəkindirən əsas amil, onların Daşnak Ermənistanı ilə separat danışıqlar aparmaları, Naxçıvan bölgəsinin ermənilərə vermək niyyətləri ilə əlaqədar idi.

1920-ci ilin yayında Gəncədə sovetlərə qarşı baş verən üsyanı yatırmaq üçün

---

[35] ARPİİSSA, F.1, S.1, İ.18, V.12.

[36] ARPİİSSA, F. 1, S. 1, İ. 18, V.13arx.; *K istorii obrazovaniya NKAO Azerbaydjanskoy SSR (1918-1925 qq.),* 57.

[37] RQASPİ, F.85, O.13, D. 32, L. 1.

[38] RQASPİ, F.85, O.1, D. 2, L. 6-7.

Sovet komandanlığı Ermənistan qoşunlarına qarşı hərbi əməliyyatları dayandırmaq və hərbi hissələri bölgədən çıxarmaq əmrini verdi. Fürsətdən istifadə edən Ermənistan qoşunları, Türkiyə ilə Sovet Azərbaycanını birləşdirən, türk-sovet hərbi əlaqələrinin həyata keçirildiyi Naxçıvan dəhlizini ələ keçirməyə çalışdılar. Ermənilər ilk həmlələrini Zəngibasara yönəltdilər. İyunun sonlarında general Skobovun başçılığı ilə yaxşı silahlanmış erməni qoşunları bölgəyə şimaldan və şərqdən hücuma keçdilər. Vedibasarı ələ keçirmiş erməni nizami hissələri iyulun 11-də Naxçıvan istiqamətində hücuma keçdilər. Ermənilərin say və silah baxımından üstünlüyü, yerli qüvvələrlə Türkiyə hərbi qüvvələri arasında koordinasiyanın olmaması, könüllülərin döyüş təcrübəsizliyi və digər amillər Naxçıvan-türk hissələrinin Şahtaxtıya qədər geri çəkilməsinə səbəb oldu. İyulun 14-də Naxçıvanın müdafiəsində mühüm strateji rol oynayan Dəhnə boğazı ermənilərin əlinə keçdi, onlar hücumlarını davam etdirərək Şərur qəzasını da işğal etdilər.[39] Naxçıvanın yenidən düşmən əhatəsinə düşmək təhlükəsi yarandı. Təhlükəni aradan qaldırmaq məqsədi ilə türk komandanlığı müəyyən addımlar atmalı oldu, o cümlədən erməni qüvvələrini yayındırmaq üçün cəbhənin digər istiqamətlərində ermənilərə hücumlar təşkil edildi.

İyulun 16-da Ərzurumda yerləşən Şərq orduları komandanlığı Qarabağdan Naxçıvana Qızıl Ordunun bir bölüyünün yola düşdüyü xəbərini aldı. Komandanlıq Naxçıvanın məhvolma təhlükəsindən xilas olmasında bu qüvvəyə böyük ümid bəsləyirdi[40]. Kazım Qarabəkirin məlumatına görə, 1 və 3 Kuban alayları 23 iyulda Gorusdan Naxçıvana hərəkət etmişlər. Ermənilərin Naxçıvan istiqamətində hərəkətlərini dayandırmaq üçün Qızıl Ordu komandanlığı tərəfindən onlara ultimatum da verilmişdi.[41] Qırmızı Ordu ilə təmas yaratmaq məqsədi ilə Kazım Qarabəkir paşa tərəfindən 12 firqə piyada komandanı kaymakam Rəşat bəyin başçılığı ilə bir heyət göndərilmişdi. Kazım Qarabəkirin yazdığına görə, onun göstərişi ilə Naxçıvanda bir milis alayı təşkil edilmiş, oraya bir necə zabit ezam edilmişdi. K.Qarabəkir paşa öz xatirələrində yazır ki, (Naxçıvanda K.İ.) türk heyətinə qarşı intriqalar nəticəsində soyuq tavrlar dolayısıyla qüvvətli erməni hissələri qarşısında bölgəni qorumaq üçün oraya əlavə olaraq 11 fırka erkanı harbiye rəisi Veysəl bəy komandasında üç tabur və bir batareyadan ibarət hərbi dəstə göndərmişdi.[42]

Ermənilərin hücum təhlükəsi ilə əlaqədar olaraq Naxçıvanın 600 nəfərlik

[39] General Veysəl Ünüvar, *Naxçıvan: təlatüm və burulğanlar (1920-1921)*, Naxçıvan: 2006, 34.
[40] Karabekir, *İstiklal Herbimiz*, 821.
[41] Karabekir, *İstiklal Herbimiz*, 824.
[42] Karabekir, *İstiklal Herbimiz*, 824.

könüllülər dəstəsi Şahtaxtıda mövqe tutmuş türk hərbi dəstəsi ilə birləşdilər.

İyulun 24-də zirehli qatar və batareya ilə hücuma keçən ermənilərin qarşısında tab gətirməyən Naxçıvan könüllüləri cəbhənin sağ cinahındakı mövqelərini tərk etmiş, sağ cinahı qoruyan türk bölükləri mühasirəyə düşmək təhlükəsi ilə əlaqədar Veysəl bəyin əmri ilə geri çəkilərək İran ərazisinə keçməyə məcbur olmuşdular. Ermənilərin qarşısını almaq üçün K.Qarabəkir paşa dəmiryolu və Araz çayı boyunca müdafiə xətti yaratmağı əmr etmişdi.

Türk-Naxçıvan qüvvələrinin uğursuzluğunun bir səbəbi də qeyd edildiyi kimi, türk qoşunları komandanlığının bolşeviklərlə ittifaqından ehtiyat edən Kəlbalı xan və onun Milli Şuradakı tərəfdarlarının və eləcə də, sovet qoşunlarının təzyiqi altında geri çəkilərək Naxçıvana gəlməyə məcbur olan Həbib Səlimov başda olmaqla Azərbaycan ordusunun bir qrup əsgərinin bölgədə antisovet təbliğatı aparmaları oldu. Öz hakimiyyətini itirəcəyindən qorxan Kəlbalı xan dəstəsini Veysəl bəyin sərəncamına göndərməkdən imtina etmiş, Türkiyənin hərbi kassa və anbarlarını zəbt etmiş, türk qoşunlarının ərzaq və digər zəruri vasitələrlə təminatına mane olmağa çalışmışdı.[43] Veysəl bəy Naxçıvan liderlərinin bu hərəkətini onların ermənilərlə atəşkəs bağlamaq niyyətində olmaları ilə izah edirdi.[44]

Ermənilər ələ keçirdikləri ərazilərdə əsil soyqırımı həyata keçirmiş, minlərlə insanı öldürmüş və əsir götürmüş, 300-dən çox kəndi yandırmışdılar. Bütün bu rayonlardan 50000 mal-qara aparılmış, 500 min nəfərlik əhali isə tamamilə yoxsul vəziyyətə düşmüşdü. Cənubi Azərbaycana pənah aparan 45.000-dən çox qaçqın aclıqdan və xəstəlikdən ölmüşdü. 70.000 qaçqın İranda, 400 min qalan qaçqın isə Naxçıvan ətrafında açıq havada qalaraq imdad diləyirdi.[45] Ermənistan rəhbərliyi öz hərəkətlərinin səbəbini bu yerlərin əhalisinin Osmanlı türklərinin rəhbərliyi və onların qoşun hissələrinin iştirakı ilə Ermənistana qarşı silahlı müqavimət göstərməsi ilə izah edirdi.

Naxçıvan nümayəndələrinin 1920-ci il iyulun ikinci yarısında İrəvanda baş nazir A.Ohancanyan, hərbi nazir L.Ter-Minasyan və general Haqverdiyanla apardıqları danışıqlar ermənilərin qeyri-məqbul tələblərinə görə baş tutmadı.[46]

Şahtaxtıda müdafiə mövqeyi tutan türk hissəsi hərbi cəhətdən o qədər də güclü

---

[43] İbrahim Ethem Atnur, *Muxtariyyət ərəfəsində Naxçıvan*, Naxçıvan: Qeyrət nəşriyyatı, 1999, 304-310.
[44] General Veysəl Ünüvar, *Naxçıvan: təlatüm və burulğanlar*, 34.
[45] Kommunist Gazetesi (rusca), Bakı: 1920, 15 oktyabr.
[46] İ. Musayev, *Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)*, Bakı: 1998, 283.

deyildi. Dəstə cəmi 197 piyada, 28 pulemyot, 17 süvari, 17 topçu, və 15 zabitdən ibarət idi[47]. İyulun 20-də Veysəl bəyin iştirakı ilə Naxçıvan Milli Şurasında yaranmış vəziyyət ciddi müzakirə edildi. Bölgənin müdafiə qabiliyyətinin artırılması üçün bir sıra tədbirlər görüldü. Lakin artıq gec idi, ermənilər iyulun 24-də 2000 piyada, 200 süvari və 8 topdan ibarət qüvvə ilə müqavimətsiz Şahtaxtını işğal etdilər və nəticədə Vedibasar, Şərur bölgələri tamamilə istila olundu. Şahtaxtının işğalı Türkiyə ilə Naxçıvan arasında, eləcə də türk qoşunları ilə sovet qoşunları arasında əlaqələrin müvəqqəti kəsilməsinə səbəb oldu. Şahtaxtının ermənilərin əlinə keçməsi Naxçıvan bölgəsində qorxu və həyəcan yaratmışdı, əhali kütləvi surətdə şəhəri tərk edərək Arazın o tayına keçirdi. Mühasirəyə düşmək təhlükəsini nəzərə alaraq Ünüvar da öz dəstəsi ilə İran ərazisinə keçərək çayın sahilində olan Ərəblər kəndində yerləşmişdi.[48]

İyul ayının 27-də hərbi nazir R.Minasyanın imzası ilə Ermənistan hökuməti Naxçıvan Milli Şurasına 15 bənddən ibarət ultimatum göndərdi. Ultimatumda 48 saat ərzində şəhərin təhvil verilməsi, Naxçıvan və Şərur qəzalarının əhalisi adından bu qəzaların Ermənistan hakimiyyətinə tabe etdirilməsi, türklərin, müsəlman qaçqınların və Azərbaycandan gəlmiş təşviqatçıların bölgədən çıxarılması, Ermənistan hökumətinə 300 at, 200 baş iş heyvanı, 300 min pud buğda, 7.000 tüfəng, 80 min patron verilməsi, dəmir yolunun dağıdılmış hissəsinin təmir edilərək Ermənistan Yollar nazirliyinə təhvil verilməsi tələb olunurdu[49]. Lakin bu ultimatum Naxçıvana çatdırıldığı zaman burada artıq Sovet hakimiyyəti qurulmuşdu və ermənilərə cavab Naxçıvan HİK tərəfindən verilmişdi. Qafqaz Cəbhəsinin komandanlığının Trotskiyə teleqramında (6 avqust 1920-ci il) Naxçıvan İnqilab Komitəsinin İrəvana, Ermənistan hökuməti ilə danışıqlara getdiyi və Ermənistan hökumətinin Naxçıvan qəzasının tabe olması ilə bağlı şərtlərlə qayıtdığını bildirilirdi.[50] Teleqramda göstərilmiş şərtlərlə ermənilərin Naxçıvan Milli Şurasına verdiyi ultimatumun şərtləri tam üst-üstə düşürdü. 48 saatlıq ultimatumun müddəti iyulun 31, saat 14-də bitirdi. Ermənistanın Hərbi Naziri naxçıvanlılara həmçinin bildirmişdi ki, göstərilən müddətdən əvvəl sovet qoşunlarının gələcəyi təqdirdə erməni komandanlığına bolşeviklərin Naxçıvandan vurulub çıxardılması haqqında əmr veriləcəkdir.[51]

---

[47] Ünüvar, *Naxçıvan: təlatüm və burulğanlar*, 33.
[48] Ünüvar, *Naxçıvan: təlatüm və burulğanlar*, 42-45.
[49] C.Həsənli, *Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939)*, Bakı: Adiloğlu, 2012, 257; Q.A. Madatov, *Pobeda Sovetskoy vlasti v Naxiçevani i obrazovanie Naxiçevanskoy ASSR*, Baku: AN Azerb. SSR, 1968, 1968, 82-83.
[50] RQASPİ, F.64, O.1, D. 17, L.55-56.
[51]V.Ünüvar da öz xatirələrində ermənilərin Naxçıvan Milli Şurasına verdikləri ultimatumun oxşar mətnini

Mustafa Kamal hökuməti bölgə əhalisini labüd fəlakətlərdən qorumaq üçün bəzi addımlar atdı. Şərq Cəbhəsi komandanı Kazım Qarabəkir ermənilərin Zəngəzur və Naxçıvan bölgələrini tutmasına imkan verməmək və əhalini qırğından xilas etmək məqsədi ilə Azərbaycan SSR Hərbi Nazirliyi və XI Qızıl Ordu komandanlığına müraciət edərək, birgə hərəkət etməyi və bu məqsədilə Türkiyə qoşunları ilə əlaqə yaratmağı təklif etdi[52]. Azərbaycan Sovet hökumətinin Hərbi nazirliyinə 23 iyun tarixli məktubunda Kazım Qarabəkir paşa ermənilərin Oltu və Zəngəzurda müsəlmanlara qarşı təcavüzə başladıqlarını, bu durum qarşısında ermənilərin hərəkətlərinə etiraz etdiklərini, təcavüzdən vaz keçmədikləri təqdirdə müdaxilə etmək zorunda qalacaqlarını xatırladırdı. Bakıdakı XI Qızıl ordu komandanlığına göndərdiyi 24 iyun 1920-ci il tarixli məktubunda Kazım Qarabəkir paşa tez bir zamanda Zəngəzurun türk qoşunları tərəfindən tutulmasını və rus qoşunları ilə Naxçıvanda olan türk hərbi hissələri ilə əlaqə yaradılmasını təklif edirdi. 29 iyul tarixli dördüncü məktubunda Kazım Qarabəkir paşa məlumat verirdi ki, daşnak mükabi inkilapçıları (əksinqilabçıları – K.İ.) Naxçıvan üzərindən qurmağa çalışdığımız əlaqəni kəsməyə çalışır və Zəngəzurdakı fəqir xalqa qarşı qətliam törədir, kəndləri dağıdırlar. Məktubda Qars dəmiryolunu açmaq, «müsəlman və erməni yoxsullarını imperialist daşnakların zülmündən xilas etmək üçün birgə hərəkət etmək» təklif olunurdu.[53]

İyulun əvvəllərində Bəyazid diviziyasının nümayəndələri Gorusa gələrək Qırmızı Ordu komandanlığı ilə danışıqlar apardı[54]. 1920-ci ilin yayında Moskvada başlayan Sovet-Türk danışıqlarında da türk nümayəndələri Ermənistana qarşı birgə çıxış etməyin zəruriliyini bolşeviklərin nəzərinə çatdırmışdılar. RSFSR xalq xarici işlər komissarının müavini Qaraxanla iyulun 24-də keçirilmiş görüşdə sonuncu Qarabağın, Naxçıvanda Alagözün və Zəngəzurun Azərbaycanın lehinə işğal edilməsi əmri verildiyini, ancaq Polşadan qüvvə gəlmədiyindən geniş miqyaslı hərbi hərəkatın hələlik mümkün olmadığını bildirmişdi.[55]

---

(bəzi fərqlərlə) verərək, Milli Şuranın iyulun 20-də ermənilərin ultimatumunu müzakirə edərək Cəfərqulu xanın imzası ilə 4 bənddən ibarət cavab məktubu hazırladığını yazır. Cavab məktubunda qeyd olunurdu ki, Ermənistan tərəfindən Naxçıvan və Şərur həvaləsinə qarşı gələcəkdə qanlı hadisələrə son qoymaq üçün müsəlman əhali bu ərazinin Ermənistanın bir parçası olmasını o zaman qəbul edər ki, Dəhnə boğazından Ordubada qədər olan ərazinin müsəlmanlarına istiqlal verilsin. (General Veysəl Ünüvar, *Naxçıvan: təlatüm və burulğanlar*, 41). Mənbələrdə göstərilmiş tarixlər arasındakı fərqlər görünür, yeni stilə keçirilməsi ilə əlaqədardır.

[52] A.N.Xeyfets, *Sovetskaya Rossiya i sopredelnıye stranı Vostok, 1918-1920 qq.*, Moskva: Nauka, 1964, 120.

[53] Cebesoy, *Moskova hatıraları*, 34-35.

[54] RQASPİ, F.85, O.14, D.29, L.10.

[55] Cebesoy, *Moskova hatıraları*, 63.

Ermənilərin bölgə üçün ciddi təhlükə olduğunu dərk edən XI Bəyazid diviziyası iyunun sonlarında Cavid bəyin komandanlığı ilə Naxçıvan istiqamətində hərəkətini sürətləndirdi. Türkiyə ordusunun 3 min nəfərlik hərbi hissəsi Naxçıvan-Şahtaxtı rayonuna daxil oldu. Türk ordusunun nümayəndələri Zəngəzurda yerləşən Sovet ordusunun komandanlığı ilə əlaqəyə girərək ermənilərə qarşı birgə əməliyyat aparmaq üçün tezliklə Naxçıvan-Ordubad xəttinə çıxmasını xahiş etdi. İyulun 16-da XI Qızıl Ordu komandanlığı «türk qoşunlarının niyyətlərini və onların daşnaklarla qarşılıqlı münasibətlərini aydınlaşdırmaq» məqsədi ilə Bəyazid diviziyasının komandanlığı ilə danışıqlar aparmaq əmrini verdi. Bu məqsədlə Naxçıvana kiçik süvari dəstə göndərilməsi və Türkiyə diviziyası ilə əlaqə yaradılması qərara alındı.[56]

Şərq ordusu komandanlığının daşnaklara qarşı birgə hərbi əməliyyatlar aparmaq barədə Sovet hökumətinə çoxsaylı müraciətləri cavabsız qalsa da türklər Sarıqamış və Şahtaxtının ermənilərdən azad olunmasında israrlı idilər. Belə şəraitdə Çiçerin Ermənistanla razılıq əldə olunmasını tezləşdirmək üçün iyul ayının 27-də S.Kirov vasitəsilə B.Leqrana təcili olaraq İrəvana getməsini tələb edirdi. Çiçerin həm də məlumat verirdi ki, türklər Naxçıvanı alaraq orada Sovet hakimiyyəti elan ediblər və təklif edirlər ki, qoşunlarımız ora girsin. Naxçıvanın qoşunlarımız tərəfindən tutulması haqqında əmr artıq çoxdan verilib, lakin hara və hansı sayda getməyimizi müəyyənləşdirmək türklərin və ya başqa xalqın işi deyildir.[57] Daxili yazışmalarda belə sərt ifadələr işlətməsinə baxmayaraq Çiçerin bolşeviklərin şərq siyasətinin həyata keçirilməsində Mustafa Kamal paşanın başçılığı ilə aparılan milli mübarizənin əhəmiyyətini yaxşı dərk edirdi. Siyasi büroya 28 iyul 1920-ci il tarixli məktubunda o yazırdı ki, Şərqdə bizim siyasətimiz Antantaya qarşı birbaşa silahlı qüvvələrlə olmasa da, hər halda silah və qızılla yardım göstərilməsi ilə müəyyənləşir. Ona görə də o Türkiyəyə söz verilmiş silahı hökmən verməyi təklif edirdi və xəbərdarlıq edirdi: «bu işin yubadılması Mustafa Kamalı məcbur edəcəkdir ki, o bizə boşboğaz və yalançı kimi baxsın, ən mühümü, inqilabi Türkiyə əzilə bilər, bu baxımdan hətta bizim zəif ehtiyatlarımız nöqteyi-nəzərindən çox da mühüm olmayan köməyimizin əməli və mənəvi baxımdan böyük əhəmiyyəti ola bilər.[58]

Bolşevikləri Naxçıvana dəvət edən türk hərbi dairələrini narahat edən əsas məsələlərdən biri də Naxçıvan əhalisinin, onun liderlərinin buraya gələcək bolşevik

[56] Musayev, *Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti*, 285.
[57] RQASPİ, F.5, O.1, D. 2104, L.1; RQASPİ, F.64, O.1, D. 17, L.40.
[58] RQASPİ. F.2, O.1, D. 314, L.12-12ob.

ordusuna münasibətinin necə olması idi. Buna görə də bolşeviklərin gəldiyi təqdirdə onların heç bir sıxıntı ilə üzləşməmələri üçün lazımi tədbirlər görülmüş, Naxçıvandakı səlahiyyətlilərə göstəriş verilmiş, hətta bölgədə kommunist təbliğatı aparmaq üçün Türkiyə kommunistlərindən ibarət 5 nəfərlik heyət Bakıdan Naxçıvana göndərilmişdi.[59] Naxçıvanın özündə bolşevizm ideyalarının təbliği naminə yerli kommunistpərəst insanlar mitinqlər keçirir, bolşevizmin bölgəyə sülh və səadət gətirəcəyini söyləyirdilər.[60]

K.Qarabəkir Naxçıvanda bolşevik əleyhdarlarının türk-sovet münasibətlərinə zərər verəcəyini düşünərək, onların fəaliyyətinin qadağan edilməsi barədə Veysəl bəyə göstəriş vermişdi. Veysəl bəyə göndərdiyi teleqramda o, həmçinin, Azərbaycan qüvvələrinin Naxçıvandan çıxarılmasını tələb etmiş və onlara «bolşeviklərə qarşı müxalif fikir hiss edilərsə, ermənilər Naxçıvanı istila etsə də, biz yardım etməyəcəyik, bolşeviklərə onlar müharibə etsələr, biz də var qüvvəmizlə bolşeviklərə kömək etmək üçün Naxçıvana gələcəyik» ultimatumunu vermiş, iyulun 14-də naxçıvanlılara bəyanat göndərərək onları bolşeviklərlə birliyə çağırmışdı.[61] Türk komandanlığı eyni zamanda H.Səlimovun başçılığı altında 1 süvari alayı, 1 piyada batalyonu və bir neçə zabitdən ibarət Azərbaycanın ordusunun bolşeviklərə qarşı çıxış edə biləcəyindən ehtiyat edərək onların bölgəni tərk edərək Türkiyəyə getməsinə nail oldu.

Bütün bu addımlar öz nəticəsini vermiş, Naxçıvanda antibolşevik qüvvələr neytrallaşdırılmışdı. Artıq bolşeviklərin bölgəni işğal etməsi üçün heç bir maneə qalmamışdı. Qırmızı Ordu hissələrinin tezliklə Naxçıvana gəlməsini tələb edən K.Qarabəkir iyulun 20-də mayor Veysəl bəydən və Naxçıvan Milli Şurasından dərhal Gorusdakı sovet diviziyası ilə əlaqə yaratmağı tələb etmişdi. Bolşevik Ordusunu qarşılamaq üçün Milli Şura və türk hərbi hissəsinin nümayəndələri ilə yanaşı bolşevik əqidəli həkim Ə.Abbasov və müəllim Ə.Rüstəmov da Naxçıvandan Gorusa yollanmışdılar.[62]

---

[59] Atnur, *Muxtariyyət ərəfəsində Naxçıvan*, 348-349.
[60] Atnur, *Muxtariyyət ərəfəsində Naxçıvan*, 350; Ünüvar, *Naxçıvan: təlatüm və burulğanlar*, 25-28.
[61] Atnur, *Muxtariyyət ərəfəsində Naxçıvan*, 348-349.
[62] Ə.Ə. Əliyev, *Naxçıvanda Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə (1920-1921-ci illər)*, Bakı: Bilik nəşriyyatı, 1960, 20.

**Sonuç**

Azərbaycan sovetləşdirildikdən dərhal sonra Azərbaycanın Naxçıvan bölgəsində yeni geosiyasi şərait yaranmış, bölgə Sovet Rusiyası, Sovet Azərbaycanı, Daşnak Ermənistanı, yeni Türkiyə arasında başlanmış hərbi, siyasi, diplomatik münasibətlərin mərkəz nöqtəsinə çevrilmişdi. Bolşeviklər daşnak Ermənistanı ilə münasibətləri nizamlamaq, bununla yanaşı, Türkiyənin Cənubi Qafqazda möhkəmlənməsinin qarşısını almaq üçün Naxçıvan məsələsindən yararlanmağa çalışırdı. Eyni zamanda M.Kamal hökuməti də Sovet hökuməti ilə əlaqələr yaradılması baxımından Naxçıvana xüsusi önəm versə də, bölgənin Ermənistan  tərəfindən işğalına qarşı qətiyyətlə çıxış edirdi.

**Kaynaklar**

CEBESOY ALİ FUAT, *Moskova hatıraları*, İstanbul: Vatan yayınları, 1955.

Arxiv Vneşnoy Politiki Rossiyskoy Federasii (AVPRF), Fond, 130, Opis, 4, Delo 496.

AVPRF, F.4, O.51, D. 54875.

Azərbaycan Respublikasi Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA*)*, fond, 1, siyahi 1, iş, 18.

ARPİİSSA, F.276, S.9, İ. 38

*Dokumentı vneşney politiki SSSR,* Tom II, Moskva: Qospolitizdat, 1958.

ƏLİYEV, Ə.Ə., *Naxçıvanda Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə (1920-1921-ci illər),* Bakı: Bilik nəşriyyatı, 1960.

ÜNÜVAR GENERAL VEYSƏL, *Naxçıvan: təlatüm və burulğanlar (1920-1921)*, Naxçıvan: Əcəmi NPB, 2006.

HƏSƏNLI, C.P., *Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939*), Bakı: Adiloğlu nəşriyyatı, 2012.

ATNUR İBRAHİM ETHEM, *Muxtariyyət ərəfəsində Naxçıvan*, Naxçıvan: Qeyrət nəşriyyatı, 1999.

*İnternatsionalnaya pomoş помощь XI Armii v borbe za pobedu Sovetskoy vlasti v Azerbaydjane* . Dokumentı i materialı (1920-1921 qq.),  Baku: Azerneşr, 1989.

*K istorii obrazovaniya NKAO Azerbaydjanskoy SSR (1918-1925 qq.),* Dokumentı i materialı, Baku: Azerneşr, 1989.

KARABEKİR KAZİM, *İstiklal Herbimiz*, İstanbul: Yeni Türkiye Yayın Evi, 1960.

Kommunist Gazetesi (rusca), Bakı: 1920, 15 oktyabr.

QAREQİN NJDE, *Korotkaya bioqrafiya i letopis jizni*, http://nashasreda.ru/garegin-nzhde/ (erişim tarihi 15.05.2019)

*Qenotsid armyan, Otvetstvennost Turtsii i obyzatelstva mirovoqo soobşestva*, tom 2, çast 1, Sostavitel, otvetstvennıy redaktor, avtor predisloviya i kommentariya Y. Q. Barseqov, Moskva: 2005.

Qosudarstvennıy Arxiv Rossiyskoy Federasii (QARF), 130, O.4, D. 496.

MADATOV, Q.A., Pobeda Sovetskoy vlasti v Naxiçevani i obrazovanie Naxiçevanskoy ASSR, Baku: AN Azerb. SSR, 1968.

MUSAYEV, İ.M., *Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)*, Bakı: BDU-NUN nəşriyyatı, 1998.

XEYFETS, A.N., *Sovetskaya Rossiya i copredelnıe stranı Vostok, 1918-1920 qq*. Moskva: Nauka, 1964.

*Respublika Armeniya v 1918-1920 q, (politiçeskaya istoriya).* Sbornik dokumentov i materialov, Yerevan: Qitutyun, 2000.

Rossiyskiy Qosudarstvenniy Arxiv Sotsialno-Politiçeskoy İstorii (RQASPİ), Fond 2, Opis 1, Delo 314.

RQASPİ, F.5, O.1, D. 2099

RQASPİ, F.5, O.1, D. 2104

RQASPİ, F.5, O.2, D. 314

RQASPİ, F.5, O.2, D. 14516

RQASPİ, F.17, O.3, D. 92

RQASPİ, F.17, O.3, D. 93

RQASPİ, F.17, O.163, D. 69

RQASPİ, F. 17. O.163, D. 83

RQASPİ, F.64, O.1, D. 17

RQASPİ, F.64, O.1, D. 21

RQASPİ, F.85, O.1, D. 2

RQASPİ,F. 85, O.3, D. 2

RQASPİ, F.85, O.13, D. 32

RQASPİ, F. 85, O. 13, D. 51

RQASPİ, F.85, O.14, D. 5

RQASPİ, F.85, O.14, D.29

RQASPİ, F.195, O.4, D.. 356

RQASPİ, F.558, O.1, D. 4018

*Velikaya Oktyabrskaya cotsialistiçeskaya revolyutsiya i pobeda Sovetskoy vlasti v Armenii*, Sbornik dokumentov, Yerevan: Aypetrat, 1957.